# Yeniyetmələrin özünüidentifikasiyasında valideynlərin rolu

**Könül Məmmədova**
*ADPU-nun müəllimi*
**E-mail:** m.nicat.04@gmail.com

**Rəyçilər:** psixol.ü.f.d., dos. M.S. Əliyev,
psixol.ü.f.d., dos. U.M. Qəzvini

**Açar sözlər:** keçid dövrü, özünüdərketmə, özünüidentifikasiya, ailə münasibətləri, psixoloji mühit
**Ключевые слова:** переходный период, самоидентификация, семейные отношения, психологическая среда
**Key words:** transition period, self-identification, family relationships, psychological environment

Yeniyetməlik yaş dövrü psixologiyada "keçid, böhranlı" yaş dövrü adlandırılır. Bu təsadüfi deyildir. Yeniyetmənin orqanizmində baş verən psixofizioloji dəyişikliklər, münasibətlər sferasının yeniləşməsi, özünə və başqalarına, münasibətin dəyişməsi onların davranış və rəftarının yenidən qurulmasına, şəxsi "Mən" deyəni potensial imkanların, keyfiyyətlərinin yaranmasına ciddi təsir göstərir. Nəzərdən keçirdiyimiz bu amillər yeniyetmənin əqli, intellektual, mənəvi-psixoloji keyfiyyətlərinin inteqrasiyasını, ən başlıcası öz kimliyinin təsdiqi ideya və arzularının bu istiqamətdə istiqamətlənməsinə səbəb olur.

Kiçik məktəblidən fərqli olaraq yeniyetmədə özünə, öz şəxsi həyatına, şəxsiyyətinin xüsusiyyətlərinə maraq yarandıqda, özünüqiymətləndirmə tələbatı, özünü başqaları ilə müqayisə etmə meyli əmələ gəlir. Nəticədə yeniyetmə özü üçün öz "mən"ini bir növ kəşf edir. Mənlik şüurunun formalaşmağa başlaması və sonrakı inkişafı yeniyetmənin bütün psixi həyatına, onun təlim fəaliyyətinin xarakterinə, ətrafdakılara münasibətinə öz təsirini göstərir. Yeniyetmənin mənlik şüurunun formalaşması onun öz davranışını, mənəvi keyfiyyətlərini, xarakter və qabiliyyətlərini dərk etməsi ilə başlayır. İlk dövrlərdə yeniyetmənin mənlik şüurunun əsasını başqa adamların mülahizələri təşkil edir. Yaş artdıqca yeniyetmə özünün şəxsiyyətini müstəqil təhlil etməyə və qiymətləndirməyə başlayır.

Bu dövrdə yeniyetmələr öz müstəqilliklərini qoruyub saxlamağa çalışmaqla refleksiya əsasında mənlik şüurlarını, «mən» obrazını, «real» və «ideal mənin» əlaqəsini formalaşdırır və inkişaf etdirirlər.

Bütün bunlarla yanaşı, olaraq yeniyetmələrdə özünüqiymətləndirmə və özünəmünasibətin formalaşması baş verir.

Bəzi tədqiqatçılar yeniyetməliyə və gəncliyə "cinsi fərdiləşmə" dövü kimi baxırlar. Yeniyetmənin özünüdərketməsində və özünüqavramasında əmələ gələn yenilikləri həmin tədqiqatçılar onların daxili aləmində baş verən köklü dəyişikliklərlə izah edirlər. Psixoseksual yanaşmanın ayrı-ayrı müəllifləri öz əsərlərində yeniyetmənin fiziki inkişafının xüsusiyyətlərinə və özünüqavramasına böyük əhəmiyyət verirlər. Məsələn, E.Erikson hesab edir ki, yeniyetmənin fiziki keyfiyyətləri onlarda eqo identikliyin və "mən"in formalaşması üçün əhəmiyyətli faktordur. E. Eriksona görə, yeniyetmənin özünüdərketməsinin əsasını identifikasiya prinsipi təşkil edir. Yəni, yeniyetmələr özlərini dərk edərkən bilavasitə özlərini başqaları ilə eyniləşdirilir. Müəllifin gəldiyi qənaətə görə, yeniyetmələrdə özünüdərketmənin

təşəkkülü və formalaşmasında bioloji, sosial və psixoloji amillər qarşılıqlı əlaqədə çıxış edir (2, 57).

Yeniyetmələrdə özünüdərketmənin təzahür xüsusiyyətlərini araşdırdıqda məlum olur ki, bu fenomendə də ziddiyyətli məqamlar var. Əks qütblü mövqelərin maksimalizmin və labilliyin mövcudluğu yeniyetmələrin davranışında, özünüdərketmədə ziddiyyətli meyllərinin yaranmasını şərtləndirir. Belə meyllər V.S.Muxinanın tədqiqatlarında aşağıdakı kimi öz əksini tapmışdır.

1) Özünün başqaları ilə hərtərəfli identifikasiyası (insanlarla, heyvanlarla, bitkilərlə və s.);
2) Başqalarından "uzaqlaşmanın, yadlaşmanın" meydana çıxması;
3) Alicənablıqdan qəddarlığa doğru davranışın genişlənməsi;
4) Ölüm qorxusundan irəli gələn suisidial hərəkətlərin mövcudluğu;

Yeniyetmələrin mövqeyində belə ənənələrin meydana çıxması, bilavasitə onun şüurunda əks olunur və özünü tutmağa olan iddianın əsas şərtlərindən biri kimi çıxış edir.

Yeniyetməlik yaşında əxlaqi şüurun inkişafı da baş verir. Bu dövrdə əxlaqi şüurun formalaşmasında yaşlılarla müxtəlif fəaliyyət növlərində qarşılıqlı əlaqəsi mühüm rol oynayır. Yeniyetmələrdə əxlaqi şüurun formalaşmasında şagird kollektivinin də müstəsna rolu vardır. Yeniyetmənin əxlaqi şüurunda iki yeni xüsusiyyət meydana çıxır: 1) bu dövrdə ictimai davranışla bağlı norma və qaydalar, insanların bir-birilə qarşılıqlı münasibətilə bağlı normalar diqqət mərkəzində olur; 2) yeniyetmədə təsadüfi təsirlərdən asılı olmayaraq nisbətən sabit əxlaqi görüşlər, hökmlər və qiymətlər əmələ gəlib özünün xüsusiyyətləri ilə təzahür etməyə başlayır. Psixoloqlar belə bir qənaətə gəlmişlər ki, yeniyetməlik yaşlı dövründə özünəməxsus "əxlaq məcəlləsi" əmələ gəlir (Ə.Ə.Əlizadə). Bu "məcəllə" onların yoldaşlıq münasibətlərini tənzim etdiyi üçün onu "yoldaşlıq məcəlləsi adlandırırlar.

Yeniyetmələrdə əxlaqi ideallar formalaşmağa başlayır. Bu ideallar güclü motiv kimi yeniyetmənin özünütərbiyəsinə, öz qüsurlarını aradan qaldırmasına təkan verir.

Yeniyetmələrdə yaşlılıq hissi və meylinin formalaşması. Yeniyetməlik dövründə diqqəti cəlb edən cəhətlərdən biri də bu dövrdə yaşlılıq hissinin və meylinin formalaşmasıdır. Yeniyetmənin özünüdərketməsi nəticəsində onun şəxsiyyətində keyfiyyətcə irəliləyiş baş verir. Ona görə də yeniyetmə özünü artıq uşaq deyil, yaşlı hesab edir və onda belə bir tələbat əmələ gəlir ki, ətrafdakılar onlara uşaq kimi deyil, yaşlı adam kimi yanaşsınlar. Bununla əlaqədar olaraq yeniyetmə müstəqilliyə meyl edir. Lakin bu dövrdə uşağın müstəqilliyə artan tələbatı ilə bu müstəqilliyi həyata keçirmək imkanları arasında ziddiyyət yaranır. Bu cür ziddiyyətin yaranmasında çox vaxt böyüklər xüsusi rol oynayır. Belə ki, böyüklər yeniyetməni hələ də uşaq hesab edir və ona həmin tələblərlə yanaşır. Belə olduqda yeniyetmə bir növ böyüklərə öz etirazını bildirir. Bu zaman böyüklər yeniyetməyə qarşı öz münasibətini dəyişmədikdə uşaq da müxtəlif yolla ona qarşı durur. Bu cür ixtilaf yeniyetmənin sözə baxmamasına, böyüklərə qarşı durması hallarına gətirib çıxarır. Yeniyetməlik dövründə yaşlılıq hissi və meylinin yaranması və formalaşması müxtəlif amillərin təsiri altında baş verə bilər. Yaşlılıq hissinin yaranması birinci növbədə uşağın fiziki inkişafındakı dəyişikliklərlə bağlı olur. Uşağın xarici görkəmi böyüklərin xarici görkəminə oxşamağa başlayır. Boyları, gücləri artır. Bu dəyişikliyi görən və özünü böyüklərlə müqayisə edən yeniyetmədə yaşlılıq meyli yaranmağa başlayır. Yaşlılıq hissinin öz mənşəinə görə sosial xarakter daşıdığını da qeyd edirlər. Yaşlı adamlarla birgə fəaliyyət, onların etimadını qazanmaq uşaqda obyektiv sosial yaşlılıq statusunun yaranmasına, bu da öz növbəsində onun özü haqqında təsəvvürlərinin dəyişməsinə gətirib çıxarır. Yeniyetmələrdə yaşlılıq hissinin yaranmasında onun düşdüyü referent qrup da müəyyən rol oynayır. Bu qrupda çox vaxt yaşca böyük

uşaqların olması və onların yeniyetməni qəbul etməsi yaşlılıq hissini bir daha gücləndirir.

Bildiyimiz kimi, identifikassiya fərdin özünün mənsub olduğu qrupla eyniləşdirməsi prosesidir. Kiçik yaşlarında uşaq ancaq bir qrupun – ailənin üzvü olduğu üçün özünü ailə üzvləri ilə identifikasiya edir. Böyüdükcə onun daxil olduğu qrupların sayı artır. Hər qrupun öz normal və qaydaları mövcud olur, ünsiyyət vasitəsilə insan bu normaları mənimsəyərək onlara riayət etməyə çalışır.

Bir çox müəlliflər (Ə.Ə.Əlizadə, R.İ.Əliyev, İ.S.Kon və b.) göstərirlər ki, uşaq hələ dünyaya gəlməmişdən əvvəl valideynlər cinsi mənsubiyyətindən asılı olaraq ona fərqli münasibət bəsləyirlər. R.Əliyev yazır: "Dünyaya gələcək uşağın oğlan və ya qız olacağından acılı olaraq valideynlər ona müəyyən münasibətini müəyyənləşdirir onun tərbiyəsi ilə necə məşğul olacağını təsəvvür edir, elə bil ki, buna hazırlaşır. Valideynlərin oğlan və qız barədə müxtəlif arzu, istək, fikir, münasibətləri və qayğıları uşaqların tərbiyəsi prosesində bütün dolğunluğu ilə əks olunur. Ata və ana istər-istəməz oğlanların tərbiyəsi ilə bir cür, qızların tərbiyəsi ilə başqa cür məşğul olur. Onlara birbaşa və ya dolayısı ilə müxtəlif keyfiyyətlər, cinsi mənsubiyyət hissi aşılayırlar" (3, 196).

Qeyd etmək lazımdır ki, yeniyetməlik dövründə özünüidentifikasiyanın fərqli təzahürləri ailə tərbiyəsinin, yeniyetmənin ailə haqqında təsəvvürlərinin hansı səviyyədə olmasından çox asılıdır. Bir sıra tədqiqatçıların fikrincə, yeniyetmələrdə ailələri "biz" təsəvvürləri çox diddi dəyişmələrə deformasiyaya uğrayır. Yeniyetmə öz ailəsində ona qarşı münasibətin xarakterindən asılı olaraq pozitiv özünəinamın itirməsinə gətirib çıxara biləcək hallarla qarşılaşır. Belə münasibət kontekstindən çıxış edən yeniyetmə özünə və başqalarına, eləcə də sosial situasiyaya münasibətdə müəyyən aqressivlik nümayiş etdirə bilər. Əksər hallarda isə bu özünəinamsızlıq, utancaqlıq, gələcəyə ümidsizlik, konkret deyilsə, özünüdərketmədə və özünüdentifikasiyada ciddi nəticələr yarada bilər.

Yeniyetmələrin hədsiz əzizlənməsi, hər cür tələblərinə güzəştə edilməsi bəzi hərəkətlər və davranışlarında onlara sərbəstlik verilməsi də pis nəticələnir, məktəbdən yayınır, siqaret çəkməyə, içki içməyə, yaşlılara məxsus oyunlar oynamağa, evə gec gəlməyə başlayır.

Müasir ailələrdə uşaqların əzizlənməsi müxtəlif formalarda özünü göstərir: əmək qayğılarından azad edilir, hamı onun canına and içir, hər sözünə əməl olunur, bərkə-boşa salınmır, adi çətinliklərini belə ata və ya ana aradan qaldırır. Nəticədə onun iddiası yeri-göyə sığınır. Artıq böyük oğlandır, lakin ailənin dərdi-səri ilə maraqlanmır, yalnız özü haqqında fikirləşir.

Bir çox ailələr də isə uşaqlara qarşı həddindən ziyadə tələbkarlıq göstərilir. Cəzanın ədalətli olmasına fikir vermirlər, bir çox hallarda cəza müstəsna dərəcədə sərt xarakter daşıyır, qorxudurlar. Bu yeniyetmədə inamsızlıq hissi yaradır. Bəzi ailələrdə isə nadinclik etdikdə, sözə baxmadıqda, dərsləri öyrənmədikdə, xoşagəlməz iş tutduqda valideyn yerli-yersiz onu danlayır. Bu isə tərbiyəyə mənfi təsir göstərir, eyni zamanda valideyn onun gözündə nüfuzdan düşür.

Fiziki cəzaya əl atan valideyn uşağa təkcə fiziki deyil, həm də psixi zərə yetirir. Psixoloji tədqiqatlar göstərir ki, artıq yeniyetməlik dövründə insanın mənlik şüuru inkişaf edir, onlar özlərini bir şəxsiyyət kimi yüksək qiymətləndirir, öz ləyaqət və şərəflərini bütün aydınlığı ilə başa düşürlər. Buna görə də yeniyetməni qətiyyən döymək olmaz, Cəzanın müxtəlif növləri vardır. Onların bir çoxundan ailə tərbiyəsində bu və ya digər dərəcədə istifadə olunur. Lakin cəza məqsəd deyil, vasitə olmalıdır. Cəzalandırma xüsusi məharət tələb etməlidir.

Ailədə tez-tez bədən cəzasına məruz qalmış uşaq özgələşir, sırtıq, kobud olur. Fiziki cəza uşağın qəlbində zərifliyi və həssaslığı məhv edir. Düzgün tərbiyə isə xoş rəftar və

tələbkarlıqla yanaşı gedir. Tələbkarlıq - uşağın şəxsiyyətinə və ləyaqətinə təzyiq kimi deyil, ona etibar və hörmət zəminində olmalıdır (3, 77).

Nəticə etibarı ilə yeniyetmələrin identifikasiyasında ailənin rolunun olması təsdiqlənir. Çünki ailədə uşaq sosial münasibətlərə - ailədaxili münasibətlərə qoşulur, onların vasitəsilə insan, dünya, mənəvi sərvətlər haqqında anlayışlara yiyələnir, başqa adamları başa düşməyi, yaşlılara, qadın və kişilərə, kiçik uşaqlara hörmət və kömək etməyi, öz nöqsanlarını görməyi öyrənir. Valideynlərin əməyə münasibəti, öz biliyini, istedadını və əməyini vətənin çiçəklənməsinə həsr etməsi, düzgünlüyü və prinsipiallığı, səmimiliyi, təvazökarlığı yeniyetmələrin özünüidetifikasiyasında mühüm amildir. Psixoloji tədqiqatlar göstərir ki, valideynlərin heç də hamısı bu imkanlardan eyni dərəcədə istifadə edə bilmirlər, lakin bir cəhət şübhəsizdir ki, valideynlərlə yeniyetmələr arasındakı münasibətlər nə qədər əlverişli olar, onların uşaq və yeniyetmələrin özünüidentifikasiyasına təsiri də bir o qədər möhkəm və səmərəli olar.

**Məqalənin aktuallığı.** İdentifikassiya fərdin özünün mənsub olduğu qrupla eyniləşdirməsi prosesidir. Yeniyetməlik yaşı ilk növbədə “Mən”in formalaşması ilə xarakterizə olunduğundan şəxsiyyətin özünüdərketməsi, bu kontekstdə özünüidentifikasiyası aktuallıq kəsb edir.

**Məqalənin elmi yeniliyi.** Məqalədə ilk dəfə yeniyetməlik yaşında özünüidentifikasiyasının xüsusiyyətləri və özünüidentifikasiyasının formalaşmasında valideynlərin rolu araşdırılır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən praktik psixologiya təcrübəsində ailə və məktəb psixoloqları faydalana bilər.

## Ədəbiyyat

1. Ə.S.Bayramov., Ə.Ə.Əlizadə. Psixologiya. Bakı, 2006.
2. Həmzəyev M.Ə. Yaş və pedaqoji psixologiyasının əsasları. Bakı: “TS”, 2000.
3. R.Əliyev. Tərbiyə psixologiyası. Bakı, 2006.
4. Ə.Qədirov. Yaş psixologiyası. Bakı: Maarif, 2002.
5. Ə.Bayramov. Şəxsiyyətin təşəkkülünün aktual psixoloji problemləri. Bakı: Azərnəşr, 1981.

**К. Мамедова**

## Психологические характеристики подростков и роль родителей в их самоидентификации

## Резюме

Рассматривая проявления самооценки в подростковом возрасте, оказывается, что в этом феномене есть противоречивые моменты. Существование максимализма и уязвимости в репрессивной позиции создает противоречивые тенденции в поведении подростков.

Следует отметить, что различные проявления самоидентификации в подростковом возрасте во многом зависят от уровня семейного воспитания и семейной идеологии

подросткового возраста. По мнению некоторых исследователей, подростки деформируются из-за изменений в их «воображении» их семей. Подросток сталкивается с ситуациями в собственной семье, которые могут привести к потере положительной самооценки, в зависимости от характера его отношения к нему. Подросток, который действует в контексте таких отношений, может проявлять агрессивность в отношениях с самим собой и другими, а также с социальной ситуацией. В большинстве случаев самообладание, стеснительность, безнадежность в будущем и конкретные последствия могут привести к серьезным последствиям в самореализации и самоидентификации.

**K. Mammadova**

## The psychological characteristics of adolescents and the role of parents in their self-identification

### Summary

When examining the manifestations of self-esteem in teens, it turns out that there are contradictory points in this phenomenon. The existence of maximalism and vulnerability in the oppressive position creates contradictory tendencies in adolescents' behavior.

It should be noted that different manifestations of self-identification during adolescence are largely dependent upon the level of family education and the family's ideology of adolescence. According to some researchers, teenagers are deformed by changes in their "imagination" of their families. The teenager faces situations in his own family that can lead to a loss of positive self-esteem, depending on the nature of his attitude towards him. A teenager who acts in the context of such attitudes can show aggressiveness in dealing with himself and others, as well as the social situation. In most cases, self-impotence, shyness, hopelessness to the future, and concrete consequences can lead to serious consequences in self-actualization and self-identification.

**Redaksiyaya daxil olub:** 17.07.2019